KNAUF ASMA TAVAN SİSTEMLƏRİ

Knauf gips-karton tavanları DİN 18168, 1- bəndinə uyğun olaraq aşağıdakılardan ibarətdir:

– DİN, ASTM, BS, İSO standartları üzrə sınaqdan keçirilmiş və sertifikatlaşdırılmış Knauf gips-karton lövhələri hamar, dəlikli və yarıqlı şəkildə 9.5, 12.5, 16 mm qalınlıqlarda istehsal edilir.
– Qızdırılmaqla sinkləşdirilmiş 0,6 mm qalınlıqlı metal profillər.
– 60/27 C-profilləri xüsusi bağlantılar, asma maşası və ilgəkli asqı teli, yaxud birbaşa bağlantı parçası və ya «Nonius» asqı vasitəsilə mövcud tavana asılır.
– Bütün aksessuarlar, birləşmə yerləri üçün materiallar, künc profilləri, bərkidici şuruplar və dübellər.



T112 gips tavanı
– ikiqatlı metal profil konstruksiyası üzərində bərkidilmə
– ümumi hündürlük minimum 163 mm



T113 gips tavanı
– biraqatlı metal profil konstruksiyası üzərində bərkidilmə
– ümumi hündürlük minimum 40 mm

İkisəviyyəli birləşdirici

Birsəviyyəli birləşdirici

Texniki və fiziki məlumat

Konstruksiya	Sistem	Minimum asılma hündürlüyü (mm)	DİN 4102-yə müvafiq odadavamlılıq (beton tavanlar)		DİN 4102-yə müvafiq odadavamlılıq (yalnız asma tavanlar üçün)		DİN 4102-yə müvafiq səs izolasiyası (yalnız asma tavanlar üçün)	
			Gips-karton lövhələrin qalınlığı/mm	Oda-davamlılığı	Gips-karton lövhələrin qalınlığı/mm	Oda-davamlılığı	Rw/dB	STC
	T 112	163	12,5 15 18	F 30 - F 60 (½-1h) F 90 (1½h) F 120 (2 h)	2 x 12,5 18 + 15	F 30(1½h) F 60(1h)	25 - 30	25 - 30
	T 113	132 (birbaşa 40 mm)	12,5 15 18	F 30 - F 60 (½-1h) F 90 (1½h) F 120 (2 h)	2 x 12,5 18 + 15 25 + 18	F 30(1½h) F 60(1h) F 90(1½h)	25 - 30	25 - 30

digər odadavamlılıq və səs izolasiyası - tələbata görə



Qeyd:

a - asqı arası məsafə

b - əsas profil arası məsafə

c - daşıyıcı profil arası məsafə

KNAUF METAL KARKASLI ARAKƏSMƏ SİSTEMLƏRİ





Knauf metal karkaslı arakəsmələr DİN 18183 standartına uyğun olaraq qeyri-daşıyıcı və yüngül çəkili konstruksiyalara aiddir. Knauf metal karkaslı arakəsmələr aşağıda göstərilən materiallardan yığılır.

– Knauf gips-karton lövhələr, 12,5/16/18/25 mm qalınlıqlarındadır, DİN, ASTM, BS, ISO standartlarına uyğun olaraq sınaqdan keçirilmişlər və müvafiq sertifikatlara malikdirlər
– 0,6 mm 2,00 mm qalınlığında qızdırılmaqla sinkləşdirilmiş dayaq və istiqamətləndirici profillər
– bütün aksessuarlar, yəni şuruplar, dübellər bəndləmə elementləri, künc profilləri və kipləşdiricilər.

Texniki və fiziki məlumat

Konstruksiya	metal karkas / GKL üzləmə	Sistem	Divarın qalınlığı (mm)	Odadavamlılıq (min / h)	Səs izolasiyası dB	Səs izolasiyası STC	Divarın hündürlüyü (m) Profil qalınlığı=...(0,6 mm) 50 mm qalınlıqlı karkas	Divarın hündürlüyü (m) Profil qalınlığı=...(0,6 mm) 100 mm qalınlıqlı karkas
	Birsıra profil təkqatlı üzləmə	**D111**	75 - 125	F30 ½ h	44-51	44-51	3,00 m	5,00 m
	Birsıra profil təkqatlı üzləmə	**D111**	75 - 125	F30 ½ h	35-40	34-39	3,00 m	5,00 m
	Birsıra profil ikiqatlı üzləmə	**D112**	100 - 155	F30 - F60 - F120 1 h - 2 h	50-55	49-54	4,00 m	6,50 m
	Birsıra profil ikiqatlı üzləmə	**D112**	100 - 155	F60 1 h	44-47	43-46	4,00 m	6,50 m
	İkisıra profil ikiqatlı üzləmə	**D115**	155 - 255	F30 - F60 - F120 1 h - 2 h	55-57	54-56	4,50 m	6,50 m
	İkisıra profil ikiqatlı üzləmə	**D116**	≥155	F60 - F120 1 h - 2 h	53	52	4,50 m	6,50 m

* digər qalınlıqlı, hündürlüklü divarlar, odadavamlılıq və ya səs izolasiyası tələbata görə

KNAUF DİVAR ÜZLƏMƏ SİSTEMLƏRİ

Knauf divar üzləmə sistemləri yeni və ya köhnə divarlar (məsələn kərpic, daş və ya beton kimi) üçün hazırlanmışdır.

Knauf divar üzləmə sistemləri aşağıdakılardan ibarətdirlər:

– DİN, ASTM, BS, İSO-ya müvafiq olan, 12,5/15/18/25 mm qalınlıqlı Knauf gips-karton lövhələri;
– alüminium folqa ilə buxar izolyasiyalı Knauf GKL (tələb olunduqda hazırlanır);
– qalınlığı 0,6 mm-dən 2 mm-dək olan, qızdırılmaqla sinkləşdirilmiş metal profillər;
– bütün aksessuarlar, yəni şuruplar, dübellər bəndləmə elementləri, künc profilləri və kipləşdiricilər;
– bütün sistemlər, sanitar və elektrik qurğuları, müdaxilə qapaqları, metal və alüminium qapı çərçivələri.

Texniki və fiziki məlumat

Konstruksiya	Sistem	Metal karkas GKL-lərlə üzləmə	Konstruksiyanın minimal qalınlığı a(mm)	DİN-ə istinadən maksimal hündürlük (m)	Səs izolyasiyası ● △ Rw dB
	D 623	TC 60 / 27 / 0,6 təkqat GKL ilə üzləmə ikiqat GKL ilə üzləmə	40 42,5	5,0 10,0	14 16
	D 625	DC 75 / 50 / 0,6 DC 100 / 50 / 0,6 təkqat GKL ilə üzləmə	87,5 112,5	3,00 4,00	14 15
	D 626	DC 50 / 50 / 0,6 DC 75 / 50 / 0,6 DC 100 / 50 / 0,6 ikiqat GKL ilə üzləmə	62,5 87,5 112,5	2,60 3,50 4,25	15 16 16

Rw● 47 dB bütöv divar üzərinə tətbiq olunduqda



D 611 sistemi

Knauf "quru suvaq" sistemi
9,5 mm və ya 12,5 mm Knauf gipskarton panelləri "Perlfiks" gips yapışdırıcısını istifadə etməklə istənilən hörgü üzərinə tətbiq oluna bilərlər.
Yeni tikililərdə və eləcə də rekonstruksiya zamanı kərpicdən və betondan ibarət daşıyıcı konstruksiyaların işlənməsində istifadə olunur. Üzlüyün səthi rənglənmə, kağızlarla üzlənmə və s. kimi növbəti dekorativ işlər tələb edir.



D 623 sistemi

Knauf D 623 metal karkaslı üzləmə sistemi
Yeni tikililərdə və eləcə də rekonstruksiya zamanı kərpicdən və betondan ibarət daşıyıcı konstruksiyaların işlənməsi, bundan başqa, məkanların istilik və səs izolyasiyasının gücləndirilməsi məqsədilə istifadə olunur. Üzlüyün səthi rənglənmə, kağızlarla üzlənmə və s. kimi növbəti dekorativ işlər tələb edir. Konstruksiyanın metal karkası tavan TC və TU profillərindən yığılır.



D 626 sistemi

Knauf D 626 metal karkaslı üzləmə sistemi
Yeni tikililərdə və eləcə də rekonstruksiya zamanı kərpicdən və betondan ibarət daşıyıcı konstruksiyaların işlənməsi, bundan başqa, məkanların istilik və səs izolyasiyasının gücləndirilməsi məqsədilə istifadə olunur. Üzlüyün səthi rənglənmə, kağızlarla üzlənmə və s. kimi növbəti dekorativ işlər tələb edir. Konstruksiyanın metal karkası divar DC və DU profillərdən yığılır.